Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 20, 2022. 22-33
DOI: 10.30546/2616-4418.20.2022.22

# FOLKLOR MƏTNLƏRİNDƏ ADƏT-ƏNƏNƏLƏR: DÜNƏN VƏ BU GÜN

**Çinarə RZAYEVA**
*AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan*
orcid.org/0000-0003-0655-9342

## Giriş

Hər bir xalqın özünəməxsus adət-ənənəsi olduğu kimi Azərbaycan xalqının da özünəməxsus adət-ənənələri vardır. Bu adət-ənənələr uzun illərdi xalq tərəfindən yaradılmış və qorunaraq yaşadılır. Ulu öndər Heydər Əliyevin təbirincə desək: "Bizim xalqımız yüz illərlə, min illərlə adət–ənənələrimizi, milli–mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi xalqımızın mənəviyyatını təşkil edən amildir" (Naxçıvan folklor antologiyası, 2011, 3).

Müstəqillik əldə etdikdən sonra xalqımız əvvəllər qeyd edə bilmədikləri adət-ənənələri də tam sərbəst, yerinə yetirir və bunu qorumaq üçün də əlindən gələni əsirgəmir. Xatırladaq ki, "adət-ənənə bir cəmiyyət və ya qrup içərisində müəyyən keçmişə sahib olan, simvolik və ya xüsusi bir əhəmiyyətdə nəsildən nəsilə ötürülərək sanksiya gücü olan mədəni qalıq, vərdiş, məlumat, davranış və inanc toplusudur" (2).


*© 2021 The Authors. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution License.*

Sevindirici haldır ki, qədim tarixi olan Azərbaycanın adət-ənənələri çox zəngindir. Bu zənginlik hər bölgədə fərqli formada da qarşımıza çıxır. Naxçıvan Muxtar Respublikasının da özünə xas olan adət-ənənələr vardır. Xatırladaq ki, adət-ənənələrin çoxu Azərbaycanın digər bölgələri ilə eyni və ya oxşardır. Müəyyən bir qismi isə fərqlənir. Bu məqalədə də Naxçıvandan toplanan folklor materiallarında işlənən adət-ənənələrin bir qismini araşdıraraq onların işlənmə yerini müəyyənləşdirməyə və təhlil süzgəcindən keçirməyə çalışdıq.

Xalqımıza məxsus adət-ənənələrin yaşadılıb nəsillərə ötürülməsi çox mühüm məsələlərdəndir. Bu da əsasən folklorşünasların və etnoqrafların əməyi sayəsində itib batmır, əksinə nəsilbənəsil ötürülərək gəlib günümüzə çatır. Eyni zamanda "qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir" (Naxçıvan folklor antologiyası, 2010, 4). Qeyd etməliyik ki, günümüzə gəlib çatan adət-ənənələrlə yanaşı itib batan adət-ənənələrimiz də az deyil. Dilçilik terimini ilə desək arxaikləşənləri, dilin aktiv fondundan çıxanları da var. Bu gün xalq tərəfindən istifadə edilməyən adətlərin müəyyən bir qismini folklor mətnlərində müşahidə edirik. Bu da folklor mətnlərinin əhəmiyyətini, onların toplanıb qorunmasının mühümlüyünü bir daha təsdiqləyir. Çünki bu gün bunlar mətnlərdə özünü göstərməsə biz keçmişdə olan adət-ənənədən bu qədər geniş məlumatlı ola bilməzdik. Xalqımıza məxsus bir qisim adət-ənənə var ki, onlar bu gün sevilərək həyata keçirilir. Unutmamalıyıq ki, adətlər, əsasən, inaclardan doğur.

## Folklor mətnlərində toy adət-ənənələri

Adətlərimiz daha çox toy mərasimində cəmlənib. Naxçıvan toylarında olan bir neçə adətlərimizi xatırlamaq yerinə düşər. Məsələn, toy mərasimlərində gəlin bəy evinə girəndə qapının ağzında boşqabı sındırması, gəlin evə gələndə başına şokalad, alma atılması adətləri bu gün də davam edir. Və bu adətlərin olması bir sıra inanclarla bağlıdır. Məslən, boşqabın sındırılması ilə qada-bəlanın uzaqlaşdırılması, alma, şokalat atılması ilə şirinlik, şənlik gətirilməsi və s. Gəlinin başına alma atma adətinə haxıştalarda rast gəlirik.

Damdan yar alma atdı, haxışta,
Atdığı alma baş yardı, haxışta.
Almasız gəlin olmaz, haxışta,
Olsa da onda şirinlik olmaz, haxışta (4).

Toy adət-ənənələrinə daha çox haxıştalarda rast gəlirik, çünki haxıştalar sırf toyla bağlı mərasimlərdə müraciət olunan janrdır.

Bundan başqa, nigah kəsiləndə gəlinin bəyin ayağını ayaqlaması və ya tərsinə, bəyin gəlinin ayağını ayaqlaması adəti də gənclərdə sözünün keçərli olması inancını yaratmışdır.

Toy mərasimləri ilə bağlı bir çox tədqiqatlar aparılmış müəyyən fikirlər ortaya çıxmışdır. İlqar Hüseynov bu barədə yazır: "Azərbaycan toylarında bədii simvollar da geniş yer tutur. Onlar toylara həm millilik, həm də prosesin özünü dramatikləşdirir, hadisəni mənalandırır" (Hüseynov, 2002, 41). Bəli, Azərbaycan toylarının özəlliyi ondadır ki, nə qədər müasirləşmə, avropalaşma getsə də millilik qorunur, milli adət-ənənələr tətbiq olunur. Belə, desək qədim adət-ənənə, millilik, müasirləşmə paralel şəkildə toy mərasimində həyata keçirilir.

Xalqımız tərəfindən sınanılaraq yaranan bu kimi adət-ənənələr mövzu müxtəlifliyi baxımından və işlənmə arealına görə genişdir. Sevindirici haldır ki, dədələrimiz, nənələrimiz tərəfindən yaranmış adətlər, ənənələr bu gün də xalq arasında yaşadılır. Demək olar ki, kiçikdən böyüyə hər kəs bu adət-ənənələri bilir və qoruyur. Toy ilə bağlı olan adətləri bütün subay qız və oğlanlarımızın əksəriyyəti əzbər bilir. Və öz toylarında, xınalarında həyata keçirirlər.

Qədim zamanların adətinə görə toylarımız qırx, yeddi və üç gün olardı. Dastanlarda, nağıllarda bunu aydın şəkildə görürük. Məsələn:

*"Çobanın səsini eşidən qoyunlar mələyib ona tərəf qaçışırlar. Bədəl özü Arazın dayaz yerindən bu taya keçir. Sürü də onun arxasınca gəlir. Haramılar ha çalışırlarsa, sürünün qabağını saxlaya bilmirlər. O, sürünü xanın həyatinə gətirir. Həsən xan çobanın qoçaqlığını görüb qızı ona verir. Yeddi gün, yeddi gecə ona toy çaldırır" (Naxçıvan folklor antologiyası, 2010, 91).*

Və yaxud "Qırx qönçə xanım" nağılından oxuyuruq:

*"Arvad gəlib oğlunu, qızını gördü, əhvalatı bilən kimi ürəyi keçib qəşş elədi, tez gülab səpib bunu ayıltdılar. Qırx gün, qırx gecə toy eləyib, naxırçı qızını da baş hərəm yerinə qoyub keyf elədilər. Yedilər, içdilər, mətləblərinə çatdılar" (Naxçıvan folklor antologiyası, 2010, 146).*

Göstərilən nümunələrin birində yeddi gün, yeddi gecə, digərində qırx gün, qırx gecə toy edilməsi toy adəti ilə deyilən fikri təsdiqləyir. Müəyyən səbəblərdən get-gedə toyların keçirilmə günü azalmağa başladı. Qırx gün, yeddi gün daha sonralar üç gün keçirildi. Bunu da folklor mətnlərində müşahidə edirik:

"Qonaqla aşıq Cəfər atdanıb Gözəldəriyə yollandılar. Gəlib toy evinə çatdılar. Toyun aşıq məclisi ayrı olardı. Toy üç gün üç gecə çəkərdi, toy qurtarannan sonra qonax aşığı yenə obaya qaytarıb gətirdi" (Naxçıvan folklor antologiyası, 2010, 468).

Bu nümunədə isə toyların üç gün, üç gecə olması vurğulanır. Bu adət sonralar müəyyən səbəblərdən yenə də deyişdirilərək bir günlə yekunlaşır. Hal-hazırda günümüzdə toylar bir gün, bir gecə olaraq keçirilir. Toy mərasimi ilə bağlı adətlərimiz kifayət qədər vardır. Bu ilk elçilik, söz, nişan, xına, toy, duvaqqapma və s. olaraq davam edir.

Toylarda olan adətlərdən biri də gəlinin başına pul, qızıl tökmək idi. Təbii ki, qızılı hamı edə bilməzdi. Bunu şahlar, padişahlar edirdi. "Arzu - Qəmbər" dastanında bunu müşahidə edirik:

"Qərib padişah öz adətlərinə görə qızın başına çoxlu qızıl tökdü. Hamının başı qızıl yığmağa qarışdı" (Naxçıvan folklor antologiyası, 2012, 691).

Gəlinin başına qızıl tökmə adəti indi yoxdu. Pul tökmə adəti isə bu gün də xalq arasında həyata keçirilir. Bu adət əsasən mağar toylarında baş verir. Göründüyü kimi qədim adətlər əsasən qədim toy yerlərində davam etdirilir.

Üzərlik yandırma adəti də qədim zamanlardan bu günə kimi davam etməkdədir. Bu adət toylarda, bayramlarda, xoş günlərdə həyata keçirilir. Toy mərasimlərində əsasən toy başlamadan üzərliklər yandırılır, gəlinə, bəyə sonra isə digər qonaqlara tüstüsü verilir. Üzərlik salmanın uzun sözləri var. Təbii ki, bunun hamısı toyda deyilmir. Folklor mətnlərində üzərlik yandırma adətini görürük:

Atəşə səp üzərliyi,
Qarnı yarıq bəzərliyi.
Suxt eyləsün əgərligi,
Çünki yetişüb Firuz,
Xoş keçəcəkdür Novruz (Bakı folklor örnəkləri, 2014, 226).

Hamıya məlumdur ki, üzərlik salma adəti kəm gözlərdən, nəzərdən qorunmaq üçün əməl edilir. Bayatı janrında da bu ifadə edilmişdir:

Bu gecə sizə gəlləm,
Pəncərənizə gəlləm.
Üzərliyi götür gəl,
Yoxsa, mən gözə gəlləm (Pirsultanlı, 2012, 114).

Gözə gəlməkdən qorxan xalqımız toylarında üzərlik yandırma adətini həyta keçirir. Üzərliyi hərlədikcə sözlərini deyir, toya, məclisə gələnlər də ona bəxşiş verir. Üzərliyə bəxşiş vermə adəti bu gün də davam edir.

## Folklor mətnlərində Novruz bayramı ilə bağlı adətlər

Adətlər təbii ki, sadəcə toy mərasimləri ilə bitmir, digər mərasimlərdə də müşahidə edirik. Məsələn, bayram mərasimlərində olan adət-ənənələrimiz də folklor materiallarında əks olunub. Novruz bayramı ilə bağlı adətlərdən bir neçəsinə diqqət yetirək:

“Yeddiləvinin səhəri Ordubadda tezdən gedib çeşmədən atlanıllar və deyillər:

- Nov, qada-balam sov” (Naxçıvan folklor antologiyası, 2012,126).

Digər bir adətə görə:

“Novruz bayramında gedib kənardan zurna çalan gətirərdilər. Çalardılar, camahat şadlıq elərdi. Qoca kişilərdən salardılar güləşə. Güləş zamanı biri çəkilərdi o başa, biri bı başa. Bir-birinə rəcəl deyərdi:

Gülüstan üstünə,
Gün düşüp bostan üstünə.
Gör nə günə qalmışam,
A Kəlbəli Qulu,
Tülkü gəlip Aslan üstünə.

Qarşı tərəfin cavabı:
Kərbəlada var ələmim,
Çərxi-fələkdəndi mənim qəmim.
Əbülfəz Abbasdı mənim köməyim,
Qüdrətin varsa gəl, meydanə" (Naxçıvan folklor antologiyası, 2012, 126).

Novruz bayramı ilə bağlı adətlər folklor materiallarında xeyli saydadır. Xalq adət-ənənələrindən biri də Novruzda səməni cücərtməkdir. Bunu da digər bölgələrimizin folklor materiallarında müşahidə edirik.

Gəndüm codan səməni
Atil batil ilə ləpəni
Həft kahə aç Ösəni
Çünki yetişüb Firuz
Xoş keçəcəkdir Novruz (Bakı folklor örnəkləri, 2014, 114).

Səməni cücərtmə adəti folklorun bir çox janrlarında qarşımıza çıxır. Tapmacalarda da səməni üstü örtülü şəkildə ifadə edilib:

Altı daş, üstü daş - arasında çəmənim,
Qazanda bişən duzsuz aşımdı mənim (səməni) (tapmacalar, 2004, 166).

Folklor materiallarını araşdırdığımız zaman bayatı janrında qarşımıza maraqlı ifadə çıxdı. Həmin bayatıdan oxuyuruq:

Mən aşıq, nə yamandır,
Dərd canda nə yamandır.
Sevmək el adətidir,
Ayrılıq nə yamandır (Naxçıvan folklor antologiyası, 2012, 482).

Üçüncü misrada "sevmək el adətidir" ifadəsi oxuyanı xeyli düşündürür. Sevmək dəmi adətdir? Görünür xalq bunu adət bilirmiş. Fikrimizcə sevgi insanın içindən gələn bir duyğudur. Kimsə kimisə adətdir deyə sevməz. İnsanlar ətrafını, dostlarını, qohumlarını insani keyfiyyətlərinə görə sevir. Bir sözlə məcburiyyətdən sevgi doğmaz.

Əvvəldə qeyd etdik ki, bəzi adətlər itib batır, ancaq onların izlərini folklor mətnlərində görürük. Məsələn, "alaqapı bəzəmə" adəti bunlardan biridir:

“Bizdə əvvəllər “alaqapı bəzəmə” deyilən bir adət olub. Bayramda kəndin mərkəzində yer ayrılar, bayramda hər kəs gücünə görə oraya bir şey qoyarmış və bu yığılan pul da kəndin kasıblarına paylanarmış” (Naxçıvan folklor antologiyası, 2011, 73).

Bu adətdən bu gün xalq arasında istifadə olunmur. Ancaq həqiqətən gözəl və yararlı adət imiş. Günümüzdə buna bənzər rəsmi şəkildə “Xeyriyyə cəmiyyəti”, “Xeyriyyə fond”ları vardır ki, imkansız ailələrə yardım edir. Fikrimizcə bu “alaqapı bəzəmə” adətinin yerini verməz. Çünki xalq adətlərinin, ənənələrinin bir başqa mahiyyəti, əhəmiyyəti, xalq dili ilə desək, öz dadı, öz duzu, öz şirinliyi vardır.

Adət-ənənələr təkcə şifahi xalq ədəbiyyatını zənginləşdirmir, həmçinin yazılı ədəbiyyatı¬mı¬zın görkəmli nümayəndələrinin yaradıcılığını da zənginləşdirir.

## Adət-ənənlərimiz bu gün

Əvvəldə qeyd etdik ki, bəzi adət-ənənələr istifadə edilmədiyindən itib batır. Bununla bərabər dünyada gedən yeniləşmə, müasirləşmə nəticəsində yeni ənənələr də meydana gəlir. Bu da müasirləşməkdən, ölkələrin bir-biri ilə əlaqələrinin genişlənməsindən asılıdır. Günümüzdə işlənən bəzi adətlər digər ölkələrdən bizə gəlmədir. Məsələn, toyun axırında gəlinin gül atması adəti bizə qonşu və qardaş ölkə olan Türkiyə toylarından keçmədir. Günümüzdə də bu adət gəlinlər tərəfindən sevilərək həyata keçirilir. Subay qız və oğlanlar da gülü tutmağa can atırlar. Bundan başqa toylarımızda bəylə gəlinin çox mərtəbəli tort kəsmə adətini də yeni yarananlar sırasında qeyd edə bilərik. Bu adət də başqa ölkə toylarından bizə keçmişdir. Təbii ki, yeni yaranan toy adət-ənənələrini qədim folklor mətnlərində müşahidə etmək mümkün deyil. Bunları ancaq yeni yaranan folklor materiallarında görə bilərik. Məsələn, haxıştalarda:

Sevdiyim mənim olsun, haxışta,
Əlində gülü olsun, haxışta.
Toyun sonu olanda, haxışta,
Subaylar gülü tutsun, haxışta (4).

Və yaxud:

Əzizinəm toy ola, haxışta,
Bəy gəlinə gül ala, haxışta.
Gəlin də gülü ata, haxışta,
Bütün subaylar tuta, haxışta (4).

Xına gecəsi oğlan evi eşitsin deyə, əsasən də bəyin eşitməyi üçün gəlinin dilindən deyilən haxıştada tort kəsmə adətini müşahidə edirik:

Şəkərbura, paxlava bilmərəm, haxışta,
Mən onları yeyib, içmərəm, haxışta.
Beş mərtəbəli tort olmasa, haxışta,
Mən o tortu kəsmərəm, haxışta (4).

Qədim dövrlərdə xına gəlinin bütün barmaqlarına, ayaqlarına qoyulurdu, yeni yaranan adətə görə gəlinin əlinə xına ilə (xüsusi xına) müxtəlif naxışlardan elementlər çəkirlər. Xınanı isə sadəcə əlin içinə ad yazmaqla kifayətlənirlər. Gəlinin əlinə çəkilən yeni naxış haxıştalarda belə ifadə edilir.

Yaylığım sənə gəlsin, haxışta,
Oğlan evindən xına gəlsin, haxışta,
Gəlinə naxış vurulsun,haxışta.
Bəy də meydana gəlsin, haxışta (4).

Təbii ki, günümüzdə yaranan yeni adət-ənənələr təkcə toy mərasimləri ilə bağlı deyil. Bir çox yöndə yeni adətləri, ənənələri müşahidə edirik.

Günümüzdə festifalların yaranması artıq ənənə halını alıb. Bu kimi yeni ənənələrin olması hamı tərəfindən xoş qarşılanır və təqdirəlayiqdir. Ancaq onu da qeyd edək ki, yeni yaranan elə adətlər var ki onlar çox da xoş qarşılanmır. Hətta bu kimi yeni adətlər keçmişdəki adətləri sığışdırıb aradan çıxartmağa çalışır. Əslində hamlıqla birlik olub buna yol verməməliyik. Çünki keçmiş adət-ənənələrimiz bir başqa dəyərdədir. Hətta qiymətsiz bir xəzinə də adlandıra bilərik.

Düşünürük ki, qədim və yeni yaranan adətin birini müqayisə etmək yerinə düşər. Məsələn, Novruzda qırmızı yumurta boyamaq adəti bu gün də davam edir, ancaq müasir dövrümüzdə yumurtalar çoxları tərəfindən qaş, daşla süslənir. Əlbəttə bu qırmızıya boyanmış yumurtanın yerini verməz.

Bu kimi yeni yaranmaqda olan adət-ənənələrin keçmiş adət-ənənələri əvəzləməsi yol verilməzdi.

## Nəticə

Araşdırma zamanı əldə edilən nəticəyə görə folklor materialları həqiqətən xalqın yaddaşı, tarixi və söz boğçasıdır. Buna görə də xalqın keçmişində dəyərli və qiymətli olan hər nə varsa onu folklor mətnləri özündə yaşadır və hər kəsi bundan xəbərdar edir. Elə araşdırma apardığımız adət-ənənələrin də bir qismini sırf folklor mətnlərində müşahidə etdik. Çünki o zaman bu adət-ənənələrin yaranmasına səbəb olan nənələrimiz, babalarımız bu gün artıq yaşamır, dünyasını dəyişiblər. Sadəcə onların söylədiklərindən xəbərdar oluruq. Təbii ki, bütün bu söylənənlər də xalqın yaddaşı sayılan folklor mətnlərində cəmlənmişdir. Bütün bu təhlillər bir daha folklor mətnlərinin toplanmasının mühümlüyünü təsdiqləyir. Unutmayaq ki, işlənmə yerindən, bölgəsindən, məkanından asılı olmayaraq hər birimiz bu adət-ənənələri qorumalıyıq. Ümummilli lider Heydər Əliyevin təbirincə desək: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (Naxçıvan folklor antologiyası, 2011, 3). "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (Naxçıvan folklor antologiyası, 2012, 4).

## *Təkliflər*

1. Folklor materiallarında müşahidə etdiyimiz, lakin günümüzdə qeyd etmədiyimiz adət-ənənələrin bəzilərinin bərpa olunması üçün müəyyən televiziya verlişləri təşkil etmək, adət-ənənələri özündə əks etdirəcək kiçik səhnəciklər hazılamaq olar. Bununla da itib batmaqda olan adətlərimizi, ənənələrimizi bərpa edə bilərik. Çünki gərçəkdən bəzi adət-ənənələrin bərpasına çox ehtiyac var. O adət-ənənələr ki, onlar xalqın keçmişini, milliliyini, tarixini, sevincini, əməyini özündə əks etdirir.

2. Adət-ənənələrimizi orta məktəb dərsliklərinə salmaqla, uşaqların mənəvi, əxlaqi dəyərlər ruhunda böyüməsinə böyük təsir etmiş olarıq.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

## Ədəbiyyat:

Bakı folklor örnəkləri. (2014). I kitab. Bakı: Elm və təhsil.
https://az.wikipedia.org/wiki/%C6%8Fn%C9%99n%C9%99
İlqar Hüseynov. (2002). Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı: Mars-Print.
Mənbə müəllifin toplayıb, hələ çap etdirmədiyi şəxsi arxivindəndir.
Naxçıvan folklor antologiyası. (2010). 3 cilddə, I cild. Naxçıvan: Əcəmi.
Naxçıvan folklor antologiyası. (2011). 3 cilddə, II cild. Naxçıvan: Əcəmi.
Naxçıvan folklor antologiyası. (2012). 3 cilddə, III cild. Naxçıvan: Əcəmi.
Sədnik Paşa Pirsultanlı. (2012). Azərbaycan ağız ədəbiyyatında bayatılar. Gəncə:
Tapmacalar. (2004). Bakı: Şərq-Qərb.

**Əlaqə məlumatı**
**E-mail:** cinarerzayeva@yahoo.com.tr

## SUMMARY

### Traditions in folklore texts: Yesterday and Today



**Chinara Rzayeva**
**Nakhchivan branch of the Azerbaijan Academy of Sciences, Azerbaijan**



Ancient folklore materials, which are the people's word box, have always attracted attention with their richness. National and moral values and traditions have a special place in this richness. Azerbaijan has always remained faithful to its national spiritual values, protected and preserved them in memory. It is known that each region has its customs and traditions. Nakhchivan also has its traditions. Most of these traditions are contained in folklore texts. The article selected a certain part of our traditions and customs processed in Nakhchivan folklore texts. The folklore of other regions was also used. It turned out that a partial tradition of customs processed in folklore texts is still being implemented among the people today. Some of them are not used today for certain reasons. These unused traditions can be found in folklore texts. All this gives grounds to say how valuable folklore material should be, as well as that folklore is memory, and folklore is history.

The article defines the place and position of the use of wedding, festive, ceremonial, etc. traditions and customs in folklore texts. Studies show that compared to other customs, wedding and holiday customs represent a quantitative superiority. The article also examines the traditions that have developed in recent days. Because both archaization and renewal occur in the language. This renewal, along with other areas, is manifested in traditions. This should also be evaluated positively. Because it indicates the modernization of the development of our people, its integration with the world. We observe such traditions in the newly formed folklore texts. These newly collected examples of folklore are also involved in the study of the article. The article provides examples of Nakhchivan folklore texts to substantiate theoretical ideas. In conclusion, new and interesting results were obtained.


***Keywords:*** Nakhchivan, folklore, traditions, wedding, holiday

## РЕЗЮМЕ

### Традиции в фольклорных текстах: Вчера и Сегодня

**Чинара Рзаева**
**Нахчыванский филиал Национальной Академии Наук Азербайджана, Азербайджан**

Древние фольклорные материалы, являющиеся словесной коробкой народа, всегда привлекали внимание своим богатством. Особое место в этом богатстве занимают национальные и нравственные ценности и традиции. Азербайджан всегда оставался верен своим национальным духовным ценностям, оберегал и хранил их в памяти. Известно, что в каждом регионе существуют свои обычаи и традиции. Нахчыван также имеет свои традиции. Большая часть этих традиций содержится в фольклорных текстах. В статье была отобрана определенная часть наших традиций и обычаев, обработанных в нахчыванских фольклорных текстах. Использовался также фольклор других регионов. Оказалось, что частичная традиция обычаев, обработанных в фольклорных текстах, реализуется и сегодня в народе. Некоторые из них не используются сегодня по определенным причинам. Эти неиспользованные традиции можно найти в фольклорных текстах. Все это дает основания говорить о том, насколько ценным должен быть фольклорный материал, а также о том, что фольклор-это память, а фольклор-это история.В статье определяется место и положение использавания свадебных, праздничных, церемониальных и т. д. традиций и обычаев в фольклорных текстах. Исследования показывают, что по сравнению с другими обычаями свадебные и праздничные обычаи представляют количественное превосходство. В статье также рассмотрены традиции, сложившиеся в последние дни. Потому что в языке происходит как архаизация, так и обновление. Это обновление наряду с другими областями проявляется и в традициях. Это также должно быть оценено положительно. Потому что это указывает на модернизацию развития нашего народа, его интеграцию с миром. Подобные традиции мы наблюдаем в новообразованных фольклорных текстах. Эти недавно собранные образцы фольклора также включены в изучение статьи.

В статье приведены примеры нахчыванских фольклорных текстов для обоснования теоретических идей. В итоге были получены новые и интересные результаты.

***Ключевые слова***: Нахчыван, фольклор, традиции, свадьба, праздник